# Fərdi üslub, milli dəyərlər və ya estetik-tematik qatlar

## Altay Məmmədov - 95

**Bu gün oxucularımıza dramaturq, nasir, ədəbiyyatşünas və tərcüməçi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Altay Məmmədovun yaradıcılığı, xüsusilə onun dramaturgiyası haqqında ətraflı danışmaq istəyirəm.**





Altay Məmmədov yaşadığı mühitin qanunlarına üstüörtülü ironiyaları ilə yanaşmaqla hekayələri, oçerkləri, məqalələri və dram əsərləri ilə diqqət mərkəzində olmağı hər zaman bacarıb. Qələmə aldığı hər bir əsər Altay Məmmədov dühasından süzülərək Sovet idarə sisteminin dəmir mançanağını, onun puç bir idarə sisteminin ifşası demək idi. Belə olmasaydı, nə "Həmyerlilər", nə "Kişilər", nə də ki, "Dəli Domrul" yaranardı.

Əslində, Altay Məmmədovun nəsrinə bələd olmadan onun dramaturgiyasını duymaq və ona şərh vermək də çətindir. Altay Məmmədov dramaturgiyası teatrın tələblərini dərindən duyan, səhnə effektlərinə deyil, aktyor ifasına güvənərək hər bir personajın isti münasibətindən doğan rejissor traktofkası ilə eynilik təşkil edən həyat həqiqətləridir.

Qeyd etmək lazımdır ki, müəllifin zəngin həyati müşahidələri əsasında yazdığı "Həmyerlilər" pyesi öz janrına görə vəziyyətlər komediyasına daha çox yaxındır. İctimai təminat idarəsinin müdiri Balvaz Balvazovun yerliçilik xəstəliyinə məruz qalaraq düşdüyü gülünc vəziyyət, baş mühasib Gümüş Gümüşovun "ölü can"ların hesabına yaşaması və yaxud da onlarla "pəncələşməsi", yelbeyin və yüngülxasiyyət Zərrinin nazir müavini axtarmaq sərgüzəşti komik ünsürlərlə zəngindir və əsərin daha çox vəziyyətlər komediyası şəklində meydana çıxmasına kömək edir.

1964-cü ildən sonra yeni və cəsarətli söz demək imkanın get-gedə məhdudlaşdığı bir dövrdə, müəllifin 1966-cı ildə qələmə aldığı "Yadındamı?" lirik-psixoloji pyesi də ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı. 1937-ci il repressiya qurbanlarının acı taleyi, bu qəbildən olan ailələrin sanki fırtınalı bir dənizə düşmüş həyatı pyesin əsas personajı olan yüksək mənəviyyatlı Zaurun timsalında göstərilir.

Altay Məmmədovun "Yadındamı?" pyesi lirik-psixoloji dram janrındadır və postsovet dönəminin repressiya illərinin insan taleyinə vurduğu ağır zərbələrindən hesab edilən şəxsiyyətin məhv edilməsi xüsusilə bu aspektə yaddaş və vicdan kimi mövzuları özündə tərənnüm edir. Müəllif bu pyesində əsasən süjet xəttini yaddaşın, keçmişlə üzləşmə, vicdan və insanlıq borcu məsələləri ətrafında maraqlı detallar ilə qurulmasına nail ola bilmişdir. Həmçinin müəllif tərəfindən seçilən pyesin adı olaraq "Yadındamı?" sualı "sən hələ də xatırlayırsan?" mənasında həm xarakterlərin özünün yadına düşməsi, həm də ümumi ictimai yaddaş üçün sanki bir çağırış olaraq səslənməkdədir.

Əsərdə Zaurun ailəsinə, dostlarına, repressiya zamanı həyatda itirdiklərinə dair xatirələr, duyğusal anekdotlar, psixoloji vəziyyətlərlə ön planda göstərilib. Pyes boyu hadisələrin gedişatı zamanı Zaur daxili monoloqları, keçmişin görüntüləri, hisslərlə qarışmış dialoqlar vasitəsilə özünü yenidən kəşf etməyə çalışır. Müəllif pyesdə hadisələrin inkişafı zamanı həmçinin konfliktin xarakter baxımından daxili psixoloji və xarici ictimai vəziyyətlərinə uyğun olaraq daha dəqiq ştrixlərlə təqdim edilməsinə müvəffəq olub. Altay Məmmədov "Yadındamı?"nın başlıca tematik və ideya qatlarını açıb göstərməklə repressiya və yaddaş olaraq "keçmişin acıları susdurula bilməz" kimi xatirələrin insanı formalaşdıran mühüm komponentləri olaraq həm şəxsi, həm də kollektiv olmaqla repressiya dönəmində formalaşdırılan yaddaşların sındırılmağa, unudulmağa məruz qalması ilə yanaşı "yadındamı?" sualı ilə bu unudulmanın qarşısını almaqla məqamını göstərməyə çalışmışdır. Şəxsiyyətin əzilişi və dirçəlişi olaraq insan yalnız fiziki baxımdan deyil, mənəvi-ruhani baxımdan da zərər görə bilər. Bu baxımdan əsər Zaurun travmaları vasitəsilə bu əzilişin təsirini göstərir, eyni zamanda onun daxili dirçəlişi, vicdanın səsi, ümidin işığı kimi təqdim edilir.

Müəllif həmçinin azğınlaşmış güc strukturlarının şəxsi həyatı, insan mənəviyyatını nə qədər sındıra biləcəyini, amma vicdanın və insanlıq borcunun nə qədər güclü olduğunu, duyğuların nə qədər müqavimət göstərə biləcəyini nümayiş etdirməyə müvəffəq ola bilib.



Pyesdə müəllif dilinin poetikliyi yaddaş, sükut, xatirə kimi estetik elementlərin vurğulanması ilə əsəri yalnız dramatik deyil, həm də poetik dəyəri olan səhnə nümunəsinə çevirə bilmişdir. Ümumiyyətlə, Altay Məmmədovun "Yadındamı?" pyesi Azərbaycan dramaturgiyasında yaddaş, şəxsiyyət, vicdan və repressiya kimi fundamental mövzularda maraqla qarşılanan lirik-psixoloji gücə malik bir əsər hesab edilir.

Müəllifin Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" pyesinin motivləri əsasında 1974-cü ildə qələmə aldığı "Ulduzlar görüşəndə" qəhrəmanlıq komediyası da dövrünün maraqlı səhnə əsərlərindən biri hesab edilir. Bu illərdə keçmiş postsovet məkanının tüğyan etdiyi Brejnev hakimiyyətinin lap mənəm-mənəm dediyi vaxtda səhnədən deyilən "Məmləkətdə ən böyük soyğunçu, quldurbaşı elə qibleyi-aləmin özüdür" cümləsinin qeyri adi bir vəchlə, bir uğultu ilə qarşılanması tamaşaçıların hər bir anı böyük incəliklə anladıqlarının göstəricisi kimi qəbul edilirdi.

Altay Məmmədovun qələmə aldığı "Aldanmış kəvakib" povestinin motivlərinə əsaslanan "Ulduzlar görüşəndə" pyesi Azərbaycan dramaturgiyasında ictimai-sosial yönümlü, həm tarixi, həm ideoloji qatları olan ən maraqlı əsərlərdən biri hesab edilir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, pyesin dramaturji-ideoloji istiqaməti Sovet dövrünün ictimai-siyasi reallıqları ilə də rezonans təşkil edir. Müəllif "Aldanmış kəvakib"in ritmik və mifoloji konseptlərini götürərək "ulduzların aldadılması", "status dəyişikliyi" kimi status ritualını sosial və siyasi kontekstdə maraqlı detallar, ştrixlər vasitəsilə təqdim etməyə müvəffəq olmuşdur. Pyesin ana xətti olaraq gənc bir liderin (məsələn, Yusif Sərrac kimi) hakimiyyətə müvəqqəti gətirilməsi, onun islahatlarının, yeniliklərinin xalq tərəfindən bəyənilməməsi və ya yanlış anlaşılması həmçinin köhnə qüvvələrin bu yenilikçi gücə qarşı çıxması cərəyan edən hadisələr fonunda statusda dəyişiklik, köhnə rejimlə yeni islahatlar arasındakı qarşıdurma əsas konflikt xətti olaraq göstərilməkdədir.

*Altay Məmmədovun dramaturgiyası: yaddaş, kimlik və estetik dünya*

"Ulduzlar görüşəndə" pyesi ictimai-sosial dram janrında yazıldığından onun dili daha çox realist, siyasi və ideoloji nüanslarla zəngindir. Eyni zamanda, povestdən götürülmüş poetik və ritmik konseptlər, simvollar istifadə olunur ki, bu da dramatik və epik qatı daha yüksək səviyyədə yarada bilir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, pyes dramaturji strukturu baxımından ideal forma, konflikt və ritorik dialoqlarla zəngin səhnələrə malikdir. Məhz "Aldanmış kəvakib"in ritual və metaforik qatlarından istifadəsi (məclis səhnələri, status dəyişməsi mərasimləri, hətta "ulduzların görüşü" kimi simvolik baxışlar) əsərin poetik-ritmikliyini artırmaqla maraqla izlənilir.

Məhz Altay Məmmədovun qələmə aldığı "Ulduzlar görüşəndə" pyesi teatr estetikası baxımından dramatik güc, simvolik atmosferə malik olması, obrazlı şəkildə istifadə və səhnə imkanlarının yaradılması baxımından zəngin material olaraq maraqla qarşılanır.

Altay Məmmədovun 1980-ci illərdə qələmə aldığı maraqlı səhnə əsərlərindən biri də "Dədə Qorqud" dastanının motivləri əsasında yazdığı "Dəli Domrul" qəhrəmanlıq komediyasıdır. Əsasən həyatla Domrul və ölüm Əzrayıl arasındakı dialoq əsasında yazılmış bu əsərində ictimai yükü və zamana baxışı ağırdır. Həyatı bəzəmək, əmin-amanlıq içərisində yaşamaq eşqi ilə ürəyi döyünən Domrulun şər qüvvə olan Əzrayıl tərəfindən ram edilməsi, hər an onun arzularının puç olmasına çalışması zaman və məkan baxımından insan ömrünün nə qədər az, əlçatmaz olduğunu diktə edir.

"Dəli Domrul" Altay Məmmədovun "Kitabi-Dədə Qorqud" dastanının "Duxa Qoca oğlu Dəli Domrulun boyu" motivlərindən götürdüyü eyniadlı pyesdir. Müəllif bu dastan hissəsini götürərək, onu dramaturji forma ilə yenidən işləyərək genişləndirmişdir. Bu əsər xüsusilə milli-mənəvi dəyərlər, qəhrəmanlıq idealları, keçmişlə müasirlik arasında əlaqə kimi mövzuları üzə çıxararaq Azərbaycan dramaturgiyasında mühüm yer tutur.

Müəllifin pyesdə təqdim etdiyi şərhində körpü motivi xüsusi olaraq diqqəti cəlb edir. Dastanda Dəli Domrulun tikdirdiyi körpü sadəcə fiziki qurğu deyil, keçid simvoludur. Belə ki, köçərilərdən, savaşlardan sıyrılıb, dinc, oturaq həyata, qurub-yaradan mühitə doğru yönəlişi özündə əks etdirir. Qeyd etmək lazımdır ki, "Dəli Domrul" pyesində dastandan irəli gələn ifadələrə, bayatı, şeir parçalarına, xalq dilinin ifadə tərzinə çox geniş şəkildə rast gəlinir. Belə ki, mətnin dili xalqın şifahi ədəbiyyatına yaxın olması epik-dastan ahəngliyini qoruya bilir.

"Dəli Domrul" tamaşaçılara milli ədəbiyyat ənənəsi ilə modern düşüncə tərzi arasında körpü rolunu göstərməklə keçmişin yalnız nostalji elementləri kimi deyil, hər zaman müasir dəyərlərlə dialoqda olmasının vacib olduğunu bütün detalları ilə sübut edə bilir. Bununla da müəllif estetik və dramatik təcrübəyə əsaslanaraq obrazların psixoloji mürəkkəbliyi, epik-dramaturji zənginliyi ilə tamaşaçının duyğu və düşüncə dünyasını stimullaşdırır. "Dəli Domrul" pyesi Altay Məmmədovun dramaturgiyasının ən önəmli və uğurlu nümunələrdəndir. Dastan materialını götürərək, onu yalnız folklor restavrasiyası kimi deyil, müasir teatrın dili ilə, obrazların psixologiyası, fikir və simvolizm qatları ilə zənginləşdirilmiş bir əsər kimi təqdim etməyə müvəffəq ola bilmişdir.

Altay Məmmədov dramaturgiyasının əsas xüsusiyyət və üstünlükləri həyat həqiqətlərinin ictimai mövzularda dürüst yanaşma tərzi ilə formalaşma mahiyyətinin xüsusi elementləri ilə seçilməsində idi. Hər zaman onun dram əsərlərində jurnalistik və publisistik motivlər, sosial problemlər, fərd və cəmiyyət arasında əlaqələr diqqət mərkəzində olmağı bacarırdı. O, satirik-komik üslubda qələmə aldığı bəzi pyeslərində, xüsusilə "Həmyerlilər", "Kişilər" və "Dəli Domrul" kimi əsərlərində, sosial səhvləri yumor və satira vasitəsilə göstərirdi. Məhz onun dramaturgiyasında milli motivlər, folklor təsirləri xüsusilə "Dəli Domrul" dramında dastan motivlərindən istifadə etməklə folklorun dramaturgiyaya gətirilməsi yaradıcılığında diqqəti cəlb edən əsas məqamlardan hesab edilir. Həmçinin Altay Məmmədov yaradıcılığının əsas xüsusiyyətlərindən biri də məhz aktyor ifasına yönələn dramaturji xəttin inkişaf etməsilə səciyyələndirilməsindədir. Onun pyesləri səhnə effektlərindən çox, personajların daxili aləmi, rolların quruluşu və aktyor ifasının gücü üzərində qurulur. Səhnədə obrazlarla dialoq, psixoloji yönüm ön planında daha qabarıq forma və üslublarda maraqla izlənilir. Maraqlı cəhət burasındadır ki, məhz Altay Məmmədov dramaturgiyasında tarixi yaddaş, milli kimlik və etnoqenez mövzular daha böyük məfkurəçilik aspektində işlənilir. Azərbaycan xalqının tarixi, etnoqrafik kökləri, milli kimlik məsələləri onun dramaturgiya və tədqiqatlarında hər zaman mühüm yer tutur.

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**